# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində milli mətbuatın 140 illiyi münasibətilə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüş



Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində milli mətbuatın 140 illiyi münasibətilə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüş keçirilmişdir. Tədbiri giriş sözü ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov açaraq KİV nümayəndələrini bu münasibətilə təbrik etdi. Ölkə Prezidenti cənab İlham Əliyevin respublikamızda milli mətbuatın 140 illiyinin keçirilməsi və mətbuatın inkişafında xidmətləri olan bir qrup şəxslərin mükafatlındırılması ilə bağlı imzaladığı sərəncamı yuksək qiymətləndirdi. A.Rəhimov qeyd etdi ki, 90-cı illərin əvvəllərində mətbuatda bir sıra problemlər olsa da, ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi bu sahənin inkişafına səbəb oldu. Senzura ləğv olundu. Bir çox KİV-lərin borcları silindi. Bir sözlə, milli mətbuatın inkişafına lazımi diqqət və qayğı göstərilməyə başlanıldı.

Bu gun isə Azərbaycan mətbuatı özünun inkişaf dövrünü yaşayır. Ölkə prezidenti cənab İlham Əliyev bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərir. Ölkəmizdə söz, fikir və məlumat azadlığının yüksək səviyyədə təmin edildiyini, kütləvi informasiya vasitələrinə dövlətimiz tərəfindən mütəmadi olaraq maddi və mənəvi dəstək verildiyini qeyd edən Arzu Rəhimov Azərbaycan milli mətbuatının tarixinin zəngin və keşməkeşli olduğunu, müasir mətbuatımızın bu gün uğurla inkişaf etdiyini və milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması istiqamətində mühüm rol oynadığını vurğuladı. Qeyd etdi ki, rəhbərlik etdiyi qurumda İctimaiyyətlə Əlaqələr Şöbəsi fəaliyyət göstərir və KİV-lərlə daim ünsiyyətdədir. Bir sözlə, mətbuat cəmiyyəti maarifləndirmə işində bizə yaxından köməklik göstərməlidir və bu baxımdan əlindən gələni əsirgəməməlidir. Cəmiyyət üçün vacib olan məlumatları vaxtında ictimaiyyətə çatdırmaqda bizə daim yardımçı olmalıdırlar. Arzu Rəhimov




bundan sonra da KİV-lərlə daim ünsiyyətdə olacaqlarını bir daha media işçilərinin diqqətinə çatdırdı.

Tədbirin sonunda ölkəmizin aparıcı media və informasiya agentlikləri qurum rəhbərliyi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırıldı.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**